# Ədəbiyyatı dərindən bilən adamlar azdır

## Dayandur Sevgin: “Çoxları ədəbiyyata çörək yeri kimi, iş yeri kimi baxırlar”

**Müsahibimiz bu günlərdə 60 yaşı tamam olan şair Dayandur Sevgindir.**

**- Dayandur müəllim, şeirdə sizin üçün nə əsasdır məzmun, yoxsa forma?**

- Şeirdə iki kriteriyə var: biri fikirdir, o biri də duyğu. Bunlardan biri olub, o biri olmayanda şeir alınmır. Əgər şeirin duyğusu çatmırsa, deməli, olur nəsr. Yəni həmin əsərdə fikir var, amma duyğu yoxdur. Fikirlə duyğu bir yerdə olanda yazılan mətn şeir olur. Ümumiyyətlə, şeir ruhdan gələn bir şeydir. Amma bu o demək deyil ki, kimsə şeir yaza bilmirsə, onun ruhu yoxdur. Var, əlbəttə ki, var! İstedad hərədə bir sahə üzrə üzə çıxır. Biri yaxşı çilingər olur, o biri yaxşı xarrat, biri yaxşı rəssam, digəri yaxşı bəstəkar olur və s. Ədəbiyyatda da ruh bədii nümunələr yazmaqçün hesablanıb. Yəni ruhsuz yazılan şeir robotun şeir yazması kimi bir şeydir. Amma elə nəsr də mütləq ruh olmalıdır. Məsələn, oxuduğum dünya nəsr klassiklərinin yazdıqları elə poeziya kimi bir şeydir.

**- Dünya ədəbiyyatı demişkən, hazırda onu hansı dərəcədə izləmək imkanınız var? Hansı yazıçıların əsərlərini oxuyursunuz?**

- Mən Sovet dövründən dünya ədəbiyyatını oxuyuram. O vaxt yüz cildlik dünya ədəbiyyatı çap olunacaqdı. Ondan sonra Sovet ittifaqı da dağıldı, seriya yarımçıq qaldı. Və kitablar da üzə çıxa bilmədi. Mən onlardan əksərini oxumuşam.

**- Onda sualı belə qoyum: dünya ədəbiyyatından kimi oxumamısınız?**

- Mən istərdim ki, bütövlükdə Çingiz Aytmatovun külliyyatını oxuyam. Onun bir çox əsərlərini oxumuşam, təbii ki... ”Gün var əsrə bərabər”, ”Əlvida, Gülsarı!” və s. Çingiz Aytmatov bütün türk dünyasında çox böyük yazıçıdır. Xalqını, millətini, dövlətini sevən bir insandır, bir yazıçıdır. Bunu, əsərlərində də çox aydın şəkildə göstərir. Xalqa bağlılığını, qırğızların keçdiyi keşməkeşli yolları, onların çəkdiyi zülmləri göz önünə gətirə bilib.

**- Son zamanlarda bestsellerlə çox dəbdədir. Yəni tələbat indi elə bil ki, bu cür əsərlərdir. Sizcə, buna səbəb nədir?**

- Yazılan əsərlərin çox alınması hələ onların möhtəşəm əsər olması demək deyil. Oxucuların çoxu yüngül yazılan ədəbiyyata gedirlər. Məsələn, detektivdir, xırda məhəbbət romanlarıdır, bunlar çox oxunur. Yəni insanlar başa düşə biləcəyi, qavrayacağı əsərləri oxuyurlar. Bu cür oxucular çox olsa da, həmin əsərlərin qalıcı olmağı üçün göstərici deyil. Mənim fikrimcə, ədəbiyyat elə ədəbiyyat üçündür! Ədəbiyyat ədəbiyyatı bilənlər üçündür! Və ədəbiyyatı dərindən bilən adamlar azdır. Kütlənin oxuduğu böyük ədəbiyyat deyil. Ədəbiyyatı bilənlər, ədəbiyyatın içində yaşayanlar, oxuyanda artıq bilirlər ki, hansı ədəbiyyat gələcəkdə də yaşayacaq...

**- Kitablarınıza, şeirlərinizə qarşı ədəbi tənqidin reaksiyası necədir? Razılaşırsızmı tənqidçilərin fikirləriylə?**

- Əgər tənqid, doğrudan da, tənqiddirsə, bəli! Əlbəttə ki, razılaşıram! Tənqidçinin işi ədəbiyyatı araşdırmaq, onu yaxşısını, pisini ələyib ortaya çıxarmaqdır. Ondan heç kim inciməməlidir. Buna normal yanaşmalıdır. Amma bir də var, tənqid əvəzinə qərəz. Yəni qərəzli şəkildə pisləmə, qaralama! Bax mən bunu qəbul eləmirəm! Mənim haqqımda ədəbi tənqidçi Vaqif Yusifli dəfələrlə yazıb. Şeirlərimi araşdırıb, öz dəyərli fikirlərini yazıb. Sağ olsun! Elə bu yaxınlarda da mənim haqqımda bir yazısı qəzetlərdən birində çap olunub. Tənqid budur. İndi, məsələn, bəzi tənqidçilər ədəbiyyatı, yazı-pozunu qoyurlar bir kənara, başlayırlar həmin müəllifin şəxsi həyatından, ailəsindən, işindən-gücündən yazmağa... Bax, bu nəyə gərəkdir axı?! Mən bunu qəbul eləmirəm! Tənqidin müəllifin şəxsiyyətinə heç bir dəxli olmamalıdır. Tənqidçi ancaq əsər haqqında fikirlərini yazmalıdır.

**- Bəzi müəlliflərə tənqidçi fikri, ümumiyyətlə, maraqlı deyil. Bəzilərini fikri təxminən bu cürdür: ”Əsəri mən belə görmüşəm, belə duymuşam, belə yazmışam və kitabım da artıq çap olunub. Neyləməliyəm? Kitabı tənqidçi fikrinə görə düzəliş edib yenidən çap etdirməliyəm?!” Siz nə düşünürsünüz bu barədə?**

- Əvvəllər belə bir ənənə vardı. Böyük əsərlər - povestlər, romanlar həmişə ”Azərbayan” jurnalında çap olunurdu. Oranın əməkdaşları ancaq yaxşı əsərləri dərc edirdilər. Əsər oxucu kütləsi qazana, sevilə bilirdisə, ondan sonra kitab halında çıxırdı. Amma o jurnalda çap olunmağın bir yaxşı xüsusiyyəti də varıydı ki, əsər çapdan sonra müzakirə olunurdu. Müxtəlif tənqidçilər, yazıçılar, redaktorlar öz fikirlərini bildirirdilər. Həmin əsəri yazan yazıçı da özünə o münasibətlərdən nələrisə əxz edirdi, üzərində yenidən işləyib çapa hazırlayırdı. Və sonra kitab, demək olar ki, jurnaldakından fərqli, təbii ki, daha yaxşı bir şəkildə çap olunurdu. Qısası bir söz deyim ki, tərif də yaxşıdır, tənqid də yaxşıdır. Amma yerində olanda.

**- Bir az da tərcümələrinizdən danışaq. Tərcümə prosesi zamanı yaradıcılıq meyarınız nələrdən ibarət olur?**

- İndiyə kimi İki şeir kitabı tərcümə etmişəm. Biri rus dilindən, digəri özbək. Bircə bunu deyə bilərəm ki, yazıçının və yaxud da şairin ruhu tərcüməçiyə uyğun gələndə əsər də çox asan tərcümə olunur. Mən də əvvəldən tərcümə etmək istədiyim kitabdakı şeirlərə baxıram, oxuyuram, gər ruhu və duyğunu bir yerdə cəmləyib yaza bilən şairdirsə, onun şeirlərini tərcümə edirəm.

**- Özbək şairi Ötkür Rəhmətin şeirlərini tərcümə edəndə hansı ruhi bağlılığı hiss etdiniz?**

- Demək olar ki, onunla düşüncə tərzimiz eynidir. Şeirlərini oxuyanda hiss etdim ki, bizim təfəkkürümüz oxşardır. Qeyd edim ki, o uzun müddət siyasi arenada olub. Prezidentin köməkçisi olub. Hal-hazırda da Özbəkistanın həm rus, həm də özbək dilində çap olunan ”Xalqın sözü” qəzetinin baş redaktorudur.

**- Azərbaycan Yazıçılar Birliyinə gələndən bu günə orda sizə münasibət necə olub, ora, ümumiyyətlə, yaradıcılığınıza nə verdi?**

- Yazıçılar Birliyinin 1999-cu ildən üzvüyəm. Amma 2008-ci ildən orda çalışmışam. Sözün düzü, heç bilmirdim ki, ora üzv olmaq nə deməkdir və AYB-yə necə üzv olurlar. Bakıya təzə gəlmişdim. Səhv etmirəmsə, 1998-ci il idi. Təsadüfən AYB-nin qarşısından keçəndə üstündə adını oxudum. Sonra şeirlərimi götürüb gəldim ”Ulduz” jurnalına. Özü də ki, əlyazma şəklində. Bir müddət sonra məni AYB-dən Arifə xanım çağırdı. Arifə xanım oranın kadr şöbəsinin müdiridir. Təəccübləndim. Tələm-tələsik özümü yetirdim ora. Gəldim ki, Arifə xanım, məni niyə axtarmısınız? Mənim kimliyimi soruşdu. Dedim Dayandur Sevginəm! Dedi ki, sizi mən yox, Fikrət Qoca axtarır. Apardı məni Fikrət müəllimin otağına. Fikrət müəllimlə bir az söhbət etdik. Məndən niyə AYB-yə üzv olub-olmadığımı soruşdu. Mən də utana-utana soruşdum ki, üzv olmaq nə deməkdir ki? Çünki Bilmirdim AYB-yə üzv olmaq nə deməkdir. O da mənə qaydasını izah elədi. Dedi ki, sənin üçün zəmanət yazılmalıdır. O zamanlar da Söhrab Tahirlə yenicə tanış olmuşdum. Görüşəndə soruşdu ki, kitabın var? Dedim yoxdur. Elə ”Ulduz” jurnalında yazım var və bir neçə qəzetdə çap olunan şeirlərim. Baxdı üzümə, dedi ki, bir şeir de, xoşuma gəlsə, sənə zəmanət yazacağam. Mən də qorxa-qorxa bir şeir oxudum. Bəyəndi. Və böyük bir kağızda mənim üçün zəmanət yazdı. Allah ona rəhmət eləsin. Bax mənim AYB-yə yolum ilk dəfə belə açıldı.



**- İndicə bir söz dediniz: yaxınlaşdım Arifə xanıma, dedim ki, mən Dayandur Sevginəm! İstərdik adınızın, təxəllüsünüzün tarixçəsindən danışasınız...**

- Mən özümə təxəllüs götürəndə bir az düşündüm. İstəyirdim ki, elə bir söz olsun ki, ona qafiyə tapmaq mümkün olmasın. Əslində, ”Sevgin” sözü ”Vurğun” sözünün bir ayrı formasıdır. Adımsa elədir ki, mən beş qızdan sonra dünyaya gəlmişəm! Kəndimizdə bir ağsaqqal olub, o qoyub adımı. Maraqlıdır ki, kəndimizdə həmin dövrdə dörd-beş qızdan sonra doğulan bütün oğlan uşaqlarına həmin ağsaqqal Dayandur adını verib.

**- 60 yaşın şair kimi hesabatı nədir: nə itirdiniz, nə qazandınız?**

- Açığını deyim ki, bir çox adamlar ədəbiyyata çörək yeri kimi, iş yeri kimi baxır. Amma mən heç vaxt belə düşünməmişəm! Şeir, ədəbiyyat, poeziya mənim üçün hər şeydir. Mən durub bu gecə beş şeir yazacam, sabaha mütləq iki şeir yazacam deməmişəm. Tanrı nə vaxt qulağıma pıçıldayıbsa, elə o vaxt da yazmışam... Əgər Allah sənə şeir ruhu verməyibsə, yazmağın mümkün deyil.

**- Həmişə deyirsiniz ki, ”mən ilanla da yola gedən adamam”. ”İlanla yola getməyin” yaxşı və pis tərəfləri nələrdir?**

- İlan elə bir heyvandır ki, onun quyruğunu tapdalamasan, o səni çalmaz. İlanla yola getmək də odur ki, ilan kimi adamlar var da, onların da damarını gərək tuta biləsən ki, dönüb səni çalmasın. Yəni həlim, xoş münasibət, davranış, həmişə insanlar arasında qarşılıqlı mehribanlıq yaradır.

**- Özünüzü hansı dövr ədəbiyyat adamlarına aid edirsiniz? Və müasir dövrün gənclərindən kimləri oxuyub-bəyənmisiz?**

- Mən özümü itirilmiş dövr ədəbiyyat adamlarından sayıram. Biz səksəninci illərdə gələnlər elə təzəcə özümüzü tanıtmaq istəyirdik ki, Sovet hökuməti dağıldı. Belə deyək ki, aləm qarışdı bir-birinə. Ədəbiyyata heç baxan da olmadı. Və illər sonra yenidən ədəbiyyata qayğı göstərilməyə başlandı. Hal-hazırda bu sahəyə böyük diqqət var. Yeni-yeni istedadlar da yetişir. Ümidverici gənclərimiz çoxdur. Onlar ”Kaspi”nin ”Ədəbiyyat” əlavəsində də, ”Ulduz” jurnalında da mütəmadi çap olunurlar, üzə çıxırlar.

Amma gəncləri var ki, iddiaları adlarından, imzalarından daha böyükdür. Mən bax bunu xoşlamıram. Mən gənclərlə tez-tez görüşürəm, danışıram, düşüncələrini bilmək istəyirəm. Həmişə deyirəm ki, başınızı, fikirlərinizi yaxşı işlərə, yaradıcılığınıza sərf edin. Özünüzdən əvvəl yaşayıb-yaratmış şairlərə, yazıçılara daş atıb, özünüzü tanıtmağın lazım deyil. Bu, heç də yaxşı vasitə deyil, hətta deyərdim ki, tanınmağın mənfi yoludur. Ziya Paşanın bir kəlamı var. Deyir:

***Aynası işdir kişinin lafa baxılmaz!***
***Şəxsin görünür rütbe-i ağlı əsərində!***

Yəni sənin üzün, göstəricin işindir. Həmişə deyirəm ki, ədəbiyyat bir qaladır. Və onun bünövrəsi var. Yeni gələn o qalanın bünövrəsinə, daşlarına toxunmamalıdır. Çünki onlar həmin bu qalanın bazasıdır, özəyidir. Əgər bacarırsansa, sən də bu qalaya öz daşını qoy. Sən öz qoyduğun daşınla tanın! Səninki lap yaxşı olsun. Başqalarına toxunma. Hər kəsin qoyduğu daş özünə, öz potensialına uyğundur.

Bir qısa hekayət danışmaq istəyirəm. Ata-bala yol gedirlər. Yolda ata rəhmətə gedir. Oğlan qalır naçar. Bilmir ki, neyləsin. Baxır ki, yaxında bir çoban qoyun otarır. Gedir xahiş eləyir ki, sən Allah, gəl mənə kömək elə. Çoban da gəlir nə bacarırsa, köməkliyini göstərir, kişini dəfn edirlər. Gecə oğlan yatır, yuxusunda atasını görür. Atası deyir: ”Bala, o çoban kimiydisə, çox savadlı adamdır. Məni necə yerbəyer edibsə, cənnətə düşmüşəm! Get ondan bir halallıq al!” Oğlan yuxudan oyanır. Və narahat olur. Gedir həmin çobanı tapır. Yuxusunu ona danışır. Çoban ona deyir ki, vallah, mən savadsız adamam, yazı bilmirəm, pozu bilmirəm, heç nə bilmirəm. Mən elə atanı dəfn edəndə əllərimi göyə açıb dedim: ”Ay Allah, bu kişi mənim qonağım olsaydı, bu sürümdəki heyvanlardan ən yaxşısını onun üçün kəsib yedizdirərdim. Ən yaxşı yorğan-döşəyimdə yatızdırardım. Səhər də yedirdib-içirdib yola salardım. İndi bu kişi mənim qonağım ola bilmədi, sənin qonağın oldu da. Özün bilən məsləhətdi!” Yəni bir şeyi istəməyin də təhəri var. İnsanlarla dil tapmağın yolları var. Ancaq yaxşılıq eləmək! İnsanları ancaq yaxşılıqla qazanmaq olar. Mənim bildiyim budur. Bu devizlə də yaşayıram!

**Söhbətləşdi: Xanım Aydın**